UOT 37.

***Lalə Akif qızı Məmmədli***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı mütəxəssisi*
*pedaqogika üzrə fəlsəfə doktoru*
https://doi.org/10.69682/arti.2025.92(1).78-80

# TƏLƏBƏLƏRDƏ FƏAL HƏYAT MÖVQEYİNİN FORMALAŞDIRILMASI: AUDİTORİYADANKƏNAR TƏDBİRLƏRİN İMKANLARI

***Лала Акиф гызы Мамедли***
*доктор философии по педагогике*
*ведущий специалист Института Образования Азербайджанской Республики*

# ФОРМИРОВАНИЕ АКТИВНОЙ ЖИЗНЕННОЙ ПОЗИЦИИ У СТУДЕНТОВ: ВОЗМОЖНОСТИ ВНЕАУДИТОРНЫХ МЕРОПРИЯТИЙ

***Lala Akif Mammadly***
*doctor of philosophy in pedagogy*
*leading specialist at the Institute of Education of the Republic of Azerbaijan*

# FORMATION OF AN ACTIVE LIFE POSITION IN STUDENTS: OPPORTUNITIES OF EXTRACURRICULAR ACTIVITIES

**Xülasə**. İnsanların, o cümlədən gənclərin həyatda fəal mövqe tutmaları son dərəcə vacibdir. Məhz fəal həyat mövqeyi qazanmaqla hər bir şəxs digərlərindən fərqlənir.

Şəxsiyyətin fəal həyat mövqeyinin əsasında uğur əldə etmək motivi dayanır. Fəal həyat mövqeyi dedikdə tələbənin yalnız standart vəzifələri həyata keçirmək deyil, eyni zamanda yeni ideyalar və onların reallaşması yollarını təklif etmək bacar və qabiliyyəti başa düşülür.

***Açar sözlər**: tələbə, həyat mövqeyi, fəal həyat mövqeyi, fəal həyat mövqeyinin formalaşdırılması, auditoriyadankənar tədbirlər*

**Аннотация.** Крайне важно, чтобы люди, в том числе и молодежь, занимали активную жизненную позицию. Именно благодаря активной жизненной позиции каждый человек выделяется среди других.

В основе активной жизненной позиции человека лежит мотив достижения успеха. Активная жизненная позиция подразумевает способность и умение студента не только выполнять стандартные задания, но и предлагать новые идеи и способы их реализации.

***Ключевые слова**: студент, жизненная позиция, активная жизненная позиция, формирование активной жизненной позиции, внеаудиторная деятельность*

**Abstract**. It is extremely important for people, including young people, to take an active life position. It is thanks to an active life position that each person stands out among others.

The basis of a person's active life position is the motive to achieve success. An active life position implies the ability and skill of a student not only to complete standard tasks, but also to offer new ideas and ways to implement them.

***Key words**: student, life position, active life position, formation of active life position, extracurricular activities*

Fəal həyat mövqeyi tələbənin öz maraqlarından, arzu və istəklərindən, ehtiyaclarından, və dəyərlərindən asılı olaraq mövcud reallığı dəyişdirmək və təkmilləşdirmək üçün şüurlu və məqsədyönlü şəkildə fəaliyyət göstərə biləcəyi xüsusi vəziyyətdir.

Ətraf mühitə maraq, onun daha yaxşı olmasına çalışmaq, qarşıda dayanan məqsədə çatmaq, niyyətlərə nail olmaq üçün özünü hərəkətlərdə ifadə etmək, konstruktiv həllər axtarmaq, məqsədyönlü, fasiləsiz fəaliyyət göstərmək fəal həyat mövqeyini şərtləndirən ümumi meylləridir.

Fəal həyat mövqeyi necə inkişaf edə bilər? Bu suala cavab verməyə çalışaq:

- fəaliyyətin məqsədinin müəyyənləşdirilməsi;
- pis vərdişlərdən uzaq durmaq;
- müntəzəm mütaliə ilə məşğul olmaq;
- yeniliklər barədə düşünmək, təkliflər irəli sürmək;
- təşkilatçı olmaq, başqa sözlə təşkilatçılıq bacarıqlarına yiyələnmək;
- müstəqillik keyfiyyətinə nail olmaq;
- fəal olmaq və s.

Cəmiyyətdə daim dəyişən müasir həyat şəraiti şəxsiyyətə yüksək tələblər verir. İctimai münasibətlərin bir tərəfdən subyekti, digər tərəfdən isə, nəticəsi kimi çıxış edən şəxsiyyət məqsədyönlü fəaliyyət prosesində həm ətraf mühiti, həm də özünü şüurlu şəkildə dəyişdirərək fəal sosial fəaliyyətləri ilə təşəkkül tapıb formalaşır. Tələbə oğlanların və qızların fəaliyyətinin başlıca məqsədi özünü dərk və ifadə etməkdən ibarətdir.

Fəal həyat mövqeyi şəxsiyyətin həyatının müxtəlif sahələrində – təhsildə, işdə, işə münasibətdə və dürüstlükdə özünü göstərir. Heç də hər bir adam, o cümlədən tələbə oğlan və yaxud qız fəal həyat mövqeyi qazana bilmir.

Tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılması müxtəlif yollarla həyata keçə bilər. Buraya konkret məqsəd müəyyənləşdirmək öz prinsiplərini əsas götürmək, özünü motivasiya etmək bacarığı və s. aiddir. Kəsəsi, fəal həyat mövqeyi hər bir şəxsin, hər bir tələbənin həyatla necə münasibət qurmağa hazır olmasının ifadəsidir.

Fəal həyat mövqeyi ani, başqa sözlə, müəyyən bir vaxt, müddət üçün qazanılmır, onu ömrü boyu izləyir. Fəal həyat mövqeyinin prinsipi insanlara fayda verməkdən ibarətdir.

Fəaliyyət anlayışı elmin bir çox sahələrində (fəlsəfə, pedaqogika, psixologiya, sosiologiya, fiziologiya, mədəniyyətşünaslıq, biologiya və s.) diqqət mərkəzinə gəlir.

Həyatda fəal mövqe tutmaq üçün fəaliyyətdə olmaq lazımdır. Fəaliyyət insanın fərdi-tipoloji funksional keyfiyyəti kimi nəzərdən keçirilir. Buraya fərqli şəxsiyyət yönümləri, dəyər meyarlarına görə bu və ya digər strategiyanın ümumiləşdirilməsi, müxtəlif fərdi həyat təcrübələri, uğur – uğursuzluq, nikbinlik – bədbinlik, asanlıq – çətinlik, məmnunluq – narazılıq aiddir.

Hər bir şəxs bu və ya digər kollektivin (işdə, təhsil müəssisəsində, ailədə) üzvü olur. O, istər-istəməz anlayır ki: o, yalnız insanlar (dostları, tələbə yoldaşları) arasında yaşayan, mövcud olan şəxs deyil, eyni zamanda insanlar (dostları, tələbə yoldaşları) üçün yaşayan insan olmalıdır.

Həyatın bizə məlum bir sıra anlayışları, eləcə də şərhləri tale, vəzifə, çağırış, təqsir və s. yalnız həyatın əksini deyil, eyni zamanda tələbənin aktivləşmə qabiliyyətini bu və ya digər dərəcədə artırır, ya da azaldır (həyati "qüvvələr", həyati "enerji", təşəbbüs və s.). Deməli, məmnunluq və narazılıq tələbənin həyat fəaliyyətini fəallaşdırır, yaxud ləngidir.

Aldığından daha çoxunu verməyi bacaran şəxs (tələbə) xoşbəxtliyə qovuşar. Hər bir insan imkan daxilində anlamalıdır ki, fəallıq, müstəqillik, təşəbbüskarlıq kimi mühüm keyfiyyətlərə, təşkilatçılıq bacarığına malik olmadan həyatda çox şeyə nail olmayacaq, fəal həyat mövqeyi qazanmayacaqdır.

Deməli, gəldiyimiz qənaət budur ki: bu və ya digər şəxsin xoşbəxtliyə çatmasından ötrü ictimaiyyətlə şəxsi birliyin mövcudluğu, başqalarına fayda verən maraqlı, məzmunlu, əhəmiyyətli bir işin olması və ümumiyyətlə şəxsi xoşbəxtlik adlandırılan hər şeyin (dostluq, sevgi, yaxşı ailə, uşaqlar, yaxşı sağlamlıq, firavanlıq və s.) olması son dərəcə vacibdir.

Tələbənin xoşbəxtliyə qovuşmasından ötrü çox şey lazımdır: sağlamlıq və dostluq və sevgi, maddi nemətlər, ailə və yaxşı kollektivin üzvü olmaq, təhsil, elm, mədəniyyət, incəsənət, istirahət, bədən tərbiyəsi və idman, yaradıcılıq sevinci və s.

Tələbələr arasında elələri vardır ki, necə yaşamağı, həyatını necə təşkil etməyi bilmir, yaxud bu məsələyə fikir vermir, bəlkə də sadəcə ciddi yanaşmır. Elə tələbələrə də rast gəlinir ki, hər gününü planlaşdırıb, həyatdan nə gözlədiyini, gələcəkdə nə edəcəklərini yaxşı bilirlər.

Beləliklə, fəal həyat mövqeyi şəxsiyyətin, tələbənin ətraf aləmə münasibəti və haqqında söz açılan həmin münasibətin onun gördüyü və düşündüyü işlərdə özünün nə şəkildə öz ifadəsinin tapma səviyyəsidir.

Həyat mövqeyi özünəməxsus növlərə malikdir: 1) fəal həyat mövqeyi; 2) qeyri-fəal (passiv) həyat mövqeyi. Fəal həyat mövqeyi həyatda tələbələrə öz köməyini göstərir, ona müsbət təsir edir.

Qeyri-fəal (passiv) həyat mövqeyi tələbənin həyatda fəal mövqe qazanmasına maneçilik törədir.

Uşaqlıq illərindən hər bir şəxs bir sıra qıcıqlandırıcılar, təşviqlər və dərslər alır,. Onların sayəsində gələcək həyat mövqeyi təşəkkül taparaq formalaşır. Fəaliyyət, hərəkət və əməllər, davranış və rəftar, ünsiyyət tərzi müsbətdirsə, bu və ya digər şəxs fəal həyat mövqeyi qazanır. Təbii ki, ata-analar tərbiyə işlərini düzgün qurarlarsa.

Lakin bu, heç də həmişə belə olmur. Yanlış tərbiyə nəticəsində uşaqlar fəal həyat mövqeyi qazanmaq barədə çox da düşünmür, vaxtlarını necə gəldi keçirirlər.

Xasiyyəti, xarakteri yaxşıdırsa, deməli, insan yaxşı tərbiyə alıb, xeyirxah olmağı bacarır, başqalarına kömək etməyə və onları başa düşməyə hazırdır, həmçinin bağışlamağı da bilir. Onun həyatı həm də düzgün hədəflər qoyması, sağlam düşüncəsi, hər hansı formada zorakılığı və pisliyi rədd etməsi ilə xarakterizə olunur, həm də ona işləməyə kömək edir, ətrafındakılara və yaxınlarına fayda gətirməyə çalışır.

Dünyada, hətta ölkəmizdə qeyri-fəal həyat mövqeyə malik insanlar kifayət qədər çoxdur. Odur ki, bu məsələ özbaşına, nəzarətsiz buraxılmamalıdır.

Ali təhsil müəssisələrində tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılması üzrə işlər müxtəlif yollar, üsul və vasitələrlə həyata keçirilir. Təlim prosesinin – mühazirə və seminar məşğələlərinin imkanlarından istifadə olunur. Pedaqoji kollektivin üzvləri, ali məktəb müəllimləri təlim prosesi ilə yanaşı auditoriyadankənar tədbirlərin zəngin imkanlarından faydalanırlar.

Auditoriyadankənar tədbirlər müəllimlər, pedaqoji kollektivin digər üzvləri tərəfindən tələbələr üçün onlara bilavasitə tərbiyəvi təsir göstərmək məqsədi ilə keçirilən tədbirlər, dərslər və vəziyyətlərdir.

Söhbət, mühazirə, müzakirə, disput, dəyirmi masa ətrafında rəy mübadiləsi, görüşlər (Milli Qəhrəmanlar, Vətən Müharibəsi Qəhrəmanları, Aprel döyüşlərində, 44 günlük müharibədə, Birinci Qarabağ döyüşlərində iştirakçılar və, fərqlənənlər qazilər və b. ilə) auditoriyadankənar işin səmərəli formalarıdır. Görkəmli şəxslərimizin (dövlət və ictimai xadimlərin, sərkərdələrin, şair, yazıçı, heykəltəraş və bəstəkarların, alimlərin və b.) fəal həyat mövqeyi tələbələr üçün nümunə olur. Belə tədbirlərin tələbələr tərəfindən hazırlanıb həyata keçirilməsi daha səmərəli təsir bağışlayır.

"Sənin doğma Vətən qarşında borcun", "Sənin fəal həyat mövqeyin", "Sənin vətəndaşlıq borcun", "Sənin ailə (təhsil müəssisəsi) qarşısında borc və məsuliyyətin", "Sənin sağlam həyat tərzin", "Uğurların ünvanı", " "Əməklə dostluq telləri", "Həyat, sən necə də gözəlsən!", "Sənin idealın", "Özünə nümunə götürdüyün şəxs", "Fəallıq və müstəqillik – fəal həyat mövqeyinin əsası kimi", "Sənin milli mənlik şüurun", "Vətənin ləyaqətli oğul və qızı", "Şərəf və ləyaqət hissi" və s. mövzularda söhbətlərin, müzakirə və disputların keçirilməsi məsləhətdir.

"Müasir milli tərbiyə idealı" mövzusunda təşkil olunan söhbətdə tələbələr bu ideala xas keyfiyyətləri aşağıdakı şəkildə sadalamışlar:

Tələbə Zaur: Müasir milli təhsil idealı dedikdə, mənim gözümün qarşısına yüksək mənəviyyata malik, səriştəli, yaradıcı, Vətənin taleyini özününkü kimi başa düşən və lazım gələndə bu tale yolunda canını belə qurban verməyə hazır olan, ölkəmizin hazırkı günü və sabahı üçün məsuliyyəti anlayan, xalqımızın milli, mənəvi və mədəni ənənələrini mühafizə edən vətəndaş gəlir.

Səmərəli təşkil olunan auditoriyadankənar iş tələbələri səfərbər edir, onlarda fəal həyat mövqeyinin formalaşmasına imkan verir.

**Problemin aktuallığı**. Həmişə olduğu kimi hazırda da tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılması aktuallığı ilə seçilir.

**Problemin yeniliyi**. Auditoriyadankənar tədbirlər tələbələrdə fəal həyat mövqeyinin tərbiyə edilməsin işin mühüm yolu kimi araşdırılır.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılarda maraq yaradacaqdır.

**Ədəbiyyat:**


1. Abbasov, A.N. Pedaqogika: Müntəxəbat: Ali təhsil müəssisələri üçün dərs vəsaiti / A.N. Abbasov, R.R. Məmmədzadə, L.A. Məmmədli. - Bakı: Mütərcim, - 2021. - 608 s.
2. Abbasov, A.N. Pedaqogika nəzəriyyəsi və tarixi Müntəxəbat: Ali təhsil müəssisələri üçün dərslik / A.N. Abbasov, L.A. Məmmədli, İ.B. Əmirəliyeva. - Bakı: Mütərcim, - 2021. - 608 s.
3. Abbasov, A.N. Pedaqogika: Ali təhsil müəssisələri üçün dərslik / A.N. Abbasov, H.Ə. Əlizadə. - Bakı: Mütərcim, - 2023. - 464 s.
4. Məmmədli, L.A. Pedaqogika nəzəriyyəsi / L.A. Məmmədli. - Bakı: Mütərcim, - 2022. - 272 s.


**Redaksiyaya daxil olub:** 20.02.2025.